Məhəmməd Əmin Rəsulzadə – 140

# AXC liderinin yubileyinə dəyərli töhfə

**ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə nəşr olunan "Azərbaycan yazıları" seriyasından "Məhəmməd Əmin Rəsulzadə" kitabı AXC dövründə buraxılmış "Azərbaycan" qəzeti külliyyatının nəşrinə (20 cildliyə) paralel toplulara daxildir. Sayca 2-ci olan bu kitab Prezident İlham Əliyevin "Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında" 2023-cü il 30 dekabr tarixli sərəncamına müvafiq olaraq ərsəyə gətirilib.**

Yeni nəşrdə AXC qurucularından olan görkəmli ictimai-siyasi və dövlət xadiminin o zamankı parlamentin orqanı "Azərbaycan" qəzetində dərc etdirdiyi məqalələr toplanıb. Akademik Teymur Kərimlinin elmi redaktorluğu ilə nəşrə hazırlanmış materialları filologiya üzrə fəlsəfə doktoru, dosent Mehdi Gəncəli, filoloq, tərcüməçi Azad Ağaoğlu transliterasiya ediblər. Bu yazılar həmin dövrün ictimai-siyasi mühiti, mürəkkəbliyi, problemləri haqqında geniş təsəvvür yaradır.

Kitabın "Ön söz"ünü "Azərbaycan"ın rus dilində nəşrinin redaktoru, tənqidçi, teatrşünas və tərcüməçi Xəlil İbrahimin 1918-ci ildə qələmə aldığı "Rəsulzadə Məhəmməd Əmin" sərlövhəli məqaləsi əvəz edir.

M.Ə.Rəsulzadənin kitabda yer almış "Məclisi-Məbusan və müxaliflər" adlı məqaləsi dövrün mürəkkəbliyindən xəbər verir: "Azərbaycanın siyasi vəziyyəti nə qədər ki, müəyyən deyildi, türklərdən olmayan bütün siyasi firqələr, bolşevik ruhlu menşevikindən tutub monarxist ruhlu kadetinə qədər, Azərbaycan istiqlalı ilə Azərbaycan Parlamanına qarşı barışmaz bir vəziyyət almışlardı. Onlar bu vəziyyətləri ilə Azərbaycan türklərini bir növ mühasirəyə almış, təslimə məcbur etmək istəmişlərdi. Zənn edirlərdi ki, xaricdən gəlmə Müttəfiqlər qüvvəti də onlara kömək olacaq, ağıllarınca türklər tərəfindən qurulmuş olan Azərbaycan hökumətini bir deyəndə atacaqlardır.

Azərbaycan türkü ilə bərabər, bu türkün ruhundan doğan idealları tərvic edən (ideallara rəvac verən), onun yolu ilə gedən Azərbaycan xadimləri isə qəflətən üzərilərinə atılan qüvvətlərə qarşı mətanət göstərdilər, durdular. Azərbaycan fikrinin "İstanbuldan" deyil, Bakıdan doğmuş olduğunu isbat etdilər. Bu sübutla hər kəsdən əvvəl bitərəf bir qüvvət olması həsabilə (səbəbindən) ilk əvvəl ingilis komandanlığı qane oldu. Onun bu qənaəti Azərbaycanın daxili müxaliflərini düşündürdü".




Nəhayət, qeyd edək ki, görkəmli siyasətçi, eyni zamanda, gözəl yazıçı-jurnalist Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycan" qəzetində dərc olunmuş məqalələri etibarlı tarixi mənbədir. Bu kitab isə onun 140 illiyinə ADA Universitetinin layiqli töhfəsidir.

***Əli NƏCƏFXANLI***
***XQ***